# Sosial islahatlar vətəndaş məmnunluğuna səbəb olur

***A**zərbaycan dövləti sosialyönümlü siyasət həyata keçirir. Məqsəd əhalinin məşğulluğunu daha da yüksəltmək, xalqımızın rifah halını gücləndirməkdir. Bu istiqamətdə görülən işlər əhalinin ən geniş təbəqələri tərəfindən dərin razılıq hissi ilə qarşılanır. Azərbaycanda son 16 ildə ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılıb. Cari ilin əvvəlindən isə bu sahədə daha geniş və əhatəli islahatlar başlanıb. Belə ki, təkcə bu il ərzində ölkəmizdə iki sosial islahat paketinin icrasına başlanılıb. Birinci sosial islahatlar paketi ilin əvvəllərində təqdim edilib. Ölkədə minimum əməkhaqqı 130 manatdan 180 manata qaldırılıb. Bu islahat 3 milyon insanı əhatə edib. Bu il iyunda isə ikinci sosial islahatlar paketi ilə bağlı sərəncam imzalanıb. 2019-cu il sentyabrın 1-dən etibarən Azərbaycanda minimum əməkhaqqı artırılaraq 180 manatdan 250 manata çatdırılıb.***

**Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hesab edirəm ki, Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir. Həm minimum əməkhaqqı, pensiyalar artırılır, həm də özünüməşğulluq proqramı geniş vüsət alır.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bu il oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlət başçısı qeyd edib ki, bu il çox ciddi və böyük sosial paketlər reallaşdırılıb. Bunun nəticəsində 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdırılıb, pensiyalar, əməkhaqları, müavinətlər artırılıb. Ölkədə inflyasiya çox aşağı səviyyədədir.

Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi bir ölkədir. Dövlət başçısı müşavirədə dedi ki, "biz gələn il də ciddi sosial proqramlar icra edəcəyik, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacaq". Bu, o deməkdir ki, gələn il də əhalinin rifahının yaxşılaşdırılması istiqamətində ciddi işlər görüləcək.

Azərbaycan dövləti sosial yardımların ədalətli, ünvanlı olmasına böyük önəm verir. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, məqsəd proqramın aztəminatlı ailələrə daha əlçatan olmasının təmin edilməsidir. Yeri gəlmişkən, proqramın əhatə dairəsinin daha da genişlənəcəyi gözlənilir.

İndi əsas vəzifələrdən biri əhalinin məşğulluğunu daha da yüksəltməkdir. Ölkəmizdə aktiv məşğulluq tədbirləri ildən-ilə gücləndirilir. Təkcə bu ilin 9 ayında 62 minə yaxın şəxs məşğulluq orqanları tərəfindən işlə təmin edilib. Özünüməşğulluq proqramı çərçivəsində bu il artıq 3500-dən çox şəxsə kiçik ailə təsərrüfatlarını qurmaları üçün lazımi köməkliklər göstərilib.

Bu istiqamətdə real addımlar atılır, əməli işlər görülür. Konkret misallar çəkmək olar. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və "Education HUB" təhsil şirkəti qadınlar arasında sosial sahibkarlığın təşviqinə yönəlmiş "Öyrən! Başla! və Tətbiq et!" adlı yeni layihəyə başlayır.

Nazirlikdən mətbuata verilən məlumatda deyilir ki, layihə Quba, Qusar və Xaçmaz rayonlarını əhatə edəcək. Bu 3 rayondan 18-28 yaşlarında 25 işsiz xanım seçilərək təlimlərə cəlb ediləcək. 4 həftəlik təlimdə xanımlara sosial sahibkarlıq, biznes-planın hazırlanması, rəqəmsal marketinq, liderliyin artırılması və şəxsi inkişaf sahələri tədris ediləcək.



Təlimləri uğurla başa vuran 10 nəfər seçiləcək. Onların Bakıya və Tbilisiyə təcrübə mübadiləsi səfərləri, sahibkarlar, işəgötürənlər və startapçılarla görüşləri təşkil ediləcək. Birgə sosial sahibkarlıq platformasının yaradılması məsələsi müzakirə ediləcək. Proqram iştirakçıları 2020-ci ilin aprel ayında keçiriləcək Sosial Sahibkarlıq Forumunda iştirak etmək imkanı da qazanacaqlar. Qeyd edək ki, layihədə iştirak ödənişsizdir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu günlərdə 50 müharibə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan vətəndaşlara "Xəzər" markalı yeni avtomobillər təqdim etməklə sevindirib. Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli vurğulayıb ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində atılan ardıcıl addımlar dövlət başçısının siyasətinin mərkəzində vətəndaş amilinin dayandığını bir daha təsdiq edir.

Nazir müavini qeyd edib ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinə və bu döyüşlərdə sağlamlıqlarını itirmələri nəticəsində əlilliyi olan şəxslərə 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilib. 2019-cu ildə azı 800 mənzil verilməsi nəzərdə tutulub, onlardan 174 mənzil artıq verilib. İndiyədək isə şəhid ailələrinə və müharibə əlillərinə 6828 mənzil təqdim edilib.

M.Kərimli avtomobillə təminat tədbirlərinin də ildən-ilə gücləndirildiyini deyib. Bildirib ki, bu il nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600-ə yaxın avtomobilin müharibə əlillərinə və onlara bərabər tutulan əlilliyi olan şəxslərə verilməsi nəzərdə tutulub. Onlardan yeni verilən 50 avtomobil də daxil olmaqla cari ildə artıq 427 avtomobil təqdim edilib. Bununla indiyədək həmin vətəndaşlara 6400-dək minik avtomobili verilib.

Avtomobillə təmin edilən vətəndaşlar sosial cəhətdən həssas qruplara göstərilən yüksək qayğıya, şəhid ailələrinin, müharibə əlillərinin, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatlarının gücləndirilməsi üçün həyata keçirilən ardıcıl tədbirlərə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

Azərbaycanda son illər uğurla aparılan sosial islahatlar əhalinin dərin razılığına səbəb olur. Ölkə vətəndaşları bütün bunları görür və dövlətin qayğısını yüksək qiymətləndirirlər.

**80 yaşlı Bakı sakini Tamara Cəfərova dedi:**

– Bu il ərzində möhtərəm Prezidentimiz İlham Əliyevin göstərişi ilə mənim pensiyam ayrı-ayrı vaxtlarda xeyli artıb. Təkcə mənim deyil, bütün yaşlı insanların pensiyaları artırılıb. Biz hamımız dövlətimizin başçısından yerdən göyə qədər razıyıq.

Qarabağ müharibəsi əlili Sərraf Orucov da dövlətin keçmiş döyüşçülərə göstərdiyi diqqət və qayğıdan razılıq edir. Keçmiş döyüşçü bu gün QHT fəalı kimi ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edir. Onun rəhbəri olduğu "Beynəlmiləlçi Əlil Döyüşçülər Fondu" bu sahədə bir sıra uğurlu layihələr həyata keçirir.

**Sərraf Orucov bu barədə danışarkən dedi:**

– Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev Qarabağ müharibəsi əlilləri, müharibə veteranlarının sosial müdafiəsi məsələsini daim diqqətdə saxlayır. Təkcə bu il ərzində bu qəbildən olan vətəndaşların pensiyalarında ciddi artımlar olmuşdur. Keçmiş döyüşçülərin dilindən bu sözlər düşmür: Prezident İlham Əliyev bizim ən yaxın dostumuzdur!

Respublikanın Əməkdar müəllimi, "Ailələrə dəstək" İctimai Birliyinin rəhbəri Esmira Rəhimova dedi ki, ölkəmizdə aparılan sosial islahatlar cəmiyyətdə vətəndaş məmnunluğuna səbəb olur.

**Esmira Rəhimova sonra fəxrlə bildirdi:**

– Bu gün dünyada həqiqətən çox az ölkə tapmaq olar ki, əhalinin sosial müdafiəsinə Azərbaycanda olduğu qədər diqqət və qayğı göstərilsin. Şübhəsiz, Azərbaycan dövləti gücləndikcə, xalqın rifahı daha da yaxşılaşacaq.

***M.HACIXANLI, "Xalq qəzeti"***